**UOT 008**
**https://doi.org/10.52094/2221-7584.2025.37.93**

**Əyyubova Günel Elman qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**magistrant**
eyyubova.gunel28@gmail.com

# 1918-Cİ İL MART SOYQIRIMININ QUBA REGİONUNUN MƏDƏNİ İRSİNƏ TƏSİRLƏRİ

**Xülasə:** Bu məqalənin əsas məqsədi, 1918-ci ildə Azərbaycanda baş vermiş soyqırımını, xüsusən də Quba bölgəsindəki faciələri təhlil etməkdir. Həmin dövrün siyasi və etnik münaqişələri fonunda, Çar Rusiyasının süqutundan sonra yaranan gərginliklər araşdırılır. Məqalə Quba şəhəri və ətraf bölgələrdə baş vermiş soyqırımların, o cümlədən məscidlərin yandırılması, evlərin talan edilməsi və on minlərlə insanın öldürülməsi kimi hadisələri diqqət mərkəzinə qoyur, bu hadisələrin yerli müsəlman və yəhudi icmalarına olan təsirini, onların psixoloji travmalarını öyrənir, habelə etnik zorakılığın cəmiyyətin mədəni və sosial strukturlarına olan uzunmüddətli təsirlərini vurğulayır.

**Açar sözlər**: Quba soyqırımı, etnoqrafik və sosial təsirlər, Azərbaycan Xalq Cümhuriyyəti, mədəni irs, tarixi travma.

1918-ci il Azərbaycan üçün çox mürəkkəb və faciəli bir dövr oldu. Bu illər, müstəqillik və milli kimlik uğrunda mübarizənin ən intensiv yaşandığı dövr idi. 1917-ci ildə Rusiyada baş verən inqilab nəticəsində Çar Rusiyası süqut etdi və həmin dövrün güc strukturları dağılmağa başladı. 1917-ci ilin fevral ayında Rusiyada çarizmin devrilməsi və müvəqqəti hökumətin yaranması ilə başlayan hadisələr, oktyabrda bolşeviklərin hakimiyyətə gəlməsi ilə daha da mürəkkəbləşdi. Bu dövrün sonunda, Bakıda bolşeviklər hakimiyyəti ələ keçirərək, Bakı Soveti tərəfindən Azərbaycan xalqına qarşı düşmən münasibətini gücləndirdilər. Bu prosesdə, Stepan Şaumyanın rəhbərlik etdiyi qüvvələr, Azərbaycan xalqına qarşı mənfi bir siyasət həyata keçirdilər.

Bu vəziyyət, Azərbaycanın siyasi vəziyyətini qlobal şəkildə dəyişdirdi. Xüsusilə, Qafqazda, həmçinin Azərbaycanın ərazisindəki yerli müsəlman, erməni və digər millətlər arasında gərginliklər artmağa başladı. 1917-1918-ci illərdə bolşeviklərin Rusiyada hakimiyyətə gəlməsi və bölgədəki erməni radikal

qruplarının fəaliyyətləri vəziyyəti daha da mürəkkəbləşdirdi. Sovet Rusiyası, müstəqil dövlətlərə qarşı təzyiqlərini artırdı və erməni millətçiləri, Azərbaycan torpaqlarında öz dövlətlərini qurmağa çalışdılar. Bu gərginlik, bölgədə ciddi qarşıdurmalara və qanlı soyqırımlara səbəb oldu.

Azərbaycan xalqı müstəqilliyini əldə etməyə çalışarkən, erməni və rus hərbi qüvvələri Azərbaycan ərazilərinə hücum edərək, xüsusilə müsəlman əhalisinə qarşı amansız soyqırımlara başladılar. Bu soyqırımların ən qızğın dövrü 1918-ci ilin mart-aprel aylarına təsadüf etdi. Cənubi Qafqazda müstəqilliyini təmin etməyə çalışan Azərbaycan xalqı, həmin dövrdə, tarixi və siyasi baxımdan əhəmiyyətli olan proseslər çərçivəsində, ermənilərin yerli müsəlman əhalisinə qarşı genişmiqyaslı zorakılıq və qətliamlar törətdiyi hadisələrlə üzləşmişdir. Bu kontekst, regiondakı etnik münaqişələrin mürəkkəbliyi və geosiyasi faktorların təsiri ilə izah edilə bilər. Bu qətliamların ən ağır nəticələri Bakı, Şamaxı və Quba regionlarında oldu. Ermənilər tərəfindən həyata keçirilən soyqırımda yüzlərlə insan öldürülmüş, yüzlərlə kənd və şəhər dağıdılmışdır. Soyqırımların arxa planında yalnız etnik və dini qarşıdurmalar deyil, həm də bölgədəki geosiyasi gərginliklər və imperiyalararası mübarizələr dayanırdı. Azərbaycanın müstəqillik uğrunda mübarizəsi, həm də öz torpaqlarında sosial və mədəni həyatın qorunması üçün aparılan bir mübarizə idi.

Bu gərginliklər, müstəqil Azərbaycan dövlətinin yaranmasında mühüm əngəllər yaratdı. Quba və digər bölgələrdəki soyqırımlar, Azərbaycan xalqının gələcək müstəqilliyi və mədəni irsinin qorunması üçün böyük bir imtahan oldu. Lakin, bu faciələrə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan etdi və 1918-ci ilin ikinci yarısında müstəqil bir dövlət qurmaq istiqamətində mühüm addımlar atıldı. 1918-ci ilin əvvəllərində Azərbaycanın müstəqil bir dövlət qurmaq ideyası önə çıxmağa başladı və 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Yeni qurulan dövlət bütün qonşu ölkələrlə dostluq və əməkdaşlıq əlaqələri yaratmaq niyyətini ifadə etdi. Azərbaycan ərazisində yaşayan bütün xalqlar demək olar ki, tam şəkildə bərabər elan edildilər. Onlar üçün bərabər hüquqlar elan olundu. "Azərbaycanın başında xalqın seçdiyi Milli Şura-parlament dayanırdı. Azərbaycan parlamentli respublika idi. Azərbaycan xalqı XX əsrdə ilk dəfə Cümhuriyyətin elan edilməsi ilə Dövlət Milləti statusunu qazandı" (6, s. 28). Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə paralel olaraq, bölgədəki etnik və dini qruplar arasında qarşıdurmalar və münaqişələr dərinləşdi. Bu müstəqillik qısa müddətli

oldu və 1920-ci ildə Sovet Rusiyasının müdaxiləsi ilə Azərbaycan Sovet İttifaqına qatıldı.

"Sovet tarixşünaslığında Stepan Şaumyanın rəhbərlik etdiyi erməni-daşnak bolşevik ittifaqı hərbi qüvvələrinin Bakı, Şamaxı, Quba, Səlyan, Göyçay, Lənkəran və Azərbaycanın başqa bölgələrində bolşevik hökuməti qurmaq adı altında azərbaycanlılara qarşı törətdikləri dəhşətli qırğınların üstündən sükutla keçmişlər. Bununla belə, bolşeviklərin qurduğu ordunun əsasən ermənilərdən ibarət olduğu faktı, Sovet tarixşünaslığında da müəyyən dərəcədə qəbul edilmişdir" (1, s. 4).

1918-ci il soyqırımı, Quba regionunda həm faciəli, həm də tarixdə silinməz izlər buraxan hadisələrlə yadda qalmışdır. Quba bölgəsi, Azərbaycanın şimalında yerləşən və müxtəlif mədəniyyətlərin bir arada yaşadığı ənənələri ilə məşhur olan bir ərazidir. Bu bölgədə Azərbaycan türkləri ilə bərabər müxtəlif etnik qrupların, o cümlədən azərbaycanlıların, ləzgilərin, dağ yəhudilərinin və tatların birgəyaşayış mədəniyyəti formalaşmışdır. Ənənəvi olaraq, Quba müxtəlif dillər, dinlər və mədəniyyətlərin vəhdət tapdığı bir məkandır. Bu multikultural mühit, bölgədəki müxtəlif icmalar arasında qarşılıqlı hörmət, əməkdaşlıq və sosial harmoniya prinsipləri əsasında inkişaf etmişdir. Bölgənin əlverişli coğrafi mövqeyi, müxtəlif xalqların burada bir arada yaşaması və tarixi irsi Quba mədəniyyətini fərqli və bənzərsiz edən əsas amillərdən olmuşdur. Quba regionu, bu soyqırımın ən böyük təsirini yaşayan bölgələrdən biri oldu. 1918-ci ilin mart ayında baş verən Bakı və Şamaxı soyqırımları kimi Quba şəhərinin və onun ətraf kəndlərinin əhalisinin də böyük hissəsinin məhv olmasına səbəb oldu. Bu hadisə, yerli müsəlmanların həyatını alt-üst etdi və əhalinin sosial strukturu ciddi şəkildə sarsıldı.

Xüsusilə mart və aprel aylarında baş verən soyqırım hadisələri, Quba şəhərini və digər ətraf kəndləri müharibənin ən qanlı sahələrinə çevirmişdir. Ermənilər tərəfindən törədilən soyqırım, erməni radikal qüvvələrinin Cənubi Qafqazda müstəqil bir erməni dövləti qurmaq məqsədi ilə həyata keçirdiyi etnik təmizləmə siyasətinin bir hissəsi olaraq baş vermişdir. Quba əhalisinin böyük əksəriyyəti müsəlmanlardan ibarət idi və erməni qüvvələri bu əhalini məhv etmək məqsədilə müxtəlif qətliamlar və dağıntılar törətmişdilər.

Quba şəhərindəki soyqırımların ən dəhşətli və təkrarlanan hadisəsi, erməni silahlı dəstələrinin mülki əhaliyə qarşı etdiyi kütləvi qətllər və şəhər ətrafında yerləşən kəndlərin vəhşicəsinə yandırılması oldu. Müsəlman kəndlərində yaşayan insanlar, erməni dəstələri tərəfindən evlərində öldürülmüş, qadınlar və uşaqlar əsir götürülmüş, əmlakları yağmalanmışdır. Xüsusilə, Quba

şəhərinin cənubundakı kəndlərə, o cümlədən Quba və Şabran arasında yerləşən kəndlərə, erməni silahlı dəstələri tərəfindən güclü hücumlar edilmişdir. Quba şəhərində baş verən soyqırım nəticəsində böyük itkilər yaşanmışdır. Əhalisinin çox hissəsi öldürülmüş, yaralılar isə tez bir zamanda xəstəxanalara yerləşdirilmişdir. Şəhərdəki mülki əhali, özlərini qorumaq üçün köhnə qala və güclü müdafiə nöqtələrində gizlənmişdi. Ancaq ermənilərin hücumları, mülki əhalinin əksər hissəsini məhv etmiş və şəhərin ətrafında yaşayan kəndlərin demək olar ki, hamısı yandırılmışdır.

Quba şəhəri və ətraf kəndlərdə baş verən qətliamlar, yalnız fiziki məhv ilə bitməmiş, həm də psixoloji travmalar yaratmışdır. Müsəlman əhalisi, öz evlərini və yurdlarını tərk edərək daha təhlükəsiz bölgələrə sığınmağa çalışmış, bir çox insanın ailə üzvləri həyatını itirmiş, başsız qalmışdır. Soyqırımın yaratdığı travmalar və itkilər, Quba əhalisinin həyatına uzun müddət boyunca təsir etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il iyulun 15-də təsis etdiyi Fövqəladə Təhqiqat Komissiyası, həmin ilin aprel və may aylarında Quba şəhəri və onun kəndlərində, Stepan Şaumyan və Qeiqoriy Karqanovun göndərdiyi erməni daşnak cəza dəstələrinin azərbaycanlılara qarşı törətdiyi zorakılıqlarla bağlı geniş bir araşdırma aparmışdır. “Bu tədqiqat çərçivəsində toplanan materiallar beş clddən ibarət olub, həmçinin zərərçəkənlərin və şahidlərin ifadə protokollarını, Quba şəhərində yandırılan və dağıdılan evlər və dükanlara dair yoxlama protokollarını, Fövqəladə Təhqiqat Komissiyasının üzvü Andrey Novatskinin və digər müvafiq şəxslərin hazırladığı məruzələri, aktları, həmçinin şəhərin fərdi ailələrinə və sakinlərinə vurulmuş maddi zərərin miqdarını əks etdirən siyahıları da özündə ehtiva edir” (3, s. 33). Bu sənədlər, həmin dövrün sosial və siyasi kontekstində baş verən hadisələri dərinləşmiş şəkildə təhlil etməyə imkan verir və həmin dövrün tarixinin araşdırılmasında mühüm mənbə təşkil edir. Quba qəzasına daxil olan Dəvəçi, Siyəzən, Xaçmaz və Qubada yüzlərlə kənd talan olunduqdan sonra yandırılmış və yerlə yeksan edilmişdir. Qəzada 13 min körpə, cavan qız-gəlin xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

Qaniçən ermənilərdən ibarət olan quldur dəstəsi Qudyalçayın sol sahilində məskən salmış dinc dağ yahudilərinə də divan tutmuşdur. Qırmızı Qəsəbə, Azərbaycanın dağ yəhudi icmasının tarixi və mədəni mərkəzi kimi mühüm əhəmiyyət kəsb edirdi. Bu gün ölkəmizdə multikulturalizm ənənələrinin əyani təsvirini Qubanın Qırmızı qəsəbəsində görmək mümkündür. Tarixi mənbələrə görə, bu ərazidəki azərbaycanlılar və dağ yəhudiləri, əsrlər boyu heç bir ayrı-seçkilik olmadan, dostluq və qardaşlıq şəraitində birgə yaşamışlar. “Tədqiqatlar

göstərir ki, bu region yalnız sosial və mədəni müxtəlifliyi ilə deyil, həm də dini və memarlıq baxımından da unikal bir irsə sahibdir. Xüsusilə, soyqırımı dövründə Qırmızı qəsəbədə yaşayan 3000-dən çox dağ yəhudisinin qətlə yetirilməsi, bu tarixi mərhələnin faciəvi nəticələrindən biridir" (7). Bu hadisələr, Quba bölgəsinin mədəni və dini müxtəlifliyinin, eyni zamanda tarixinin dərindən araşdırılmasını tələb edir. Bu hadisələr, yalnız bir etnik qrupun məhvinə səbəb olmamış, eyni zamanda Azərbaycanın multikultural kimliyini təcəssüm etdirən mədəniyyət mərkəzinin dəhşətli dağıntılarla üzləşməsinə gətirib çıxarmışdır. Qırmızı qəsəbə, həm etnoqrafik, həm də sosial tədqiqatlar baxımından vacib bir obyekt olaraq diqqətəlayiqdir və bu hadisələr regionun tarixi yaddaşını əhəmiyyətli dərəcədə formalaşdırmışdır.

"Bu faktı araşdıran Qubadakı Qırmızı qəsəbə sakini, Qubadan Milli Məclisə deputat seçilmiş Yevda Abramov bildirir ki, ermənilər Azərbaycan ərazisində 3000 nəfərdən çox dağ yahudisini qətlə yetirmişdir ki, bunlardan 87 nəfəri Qırmızı qəsəbə sakinidir" (5, s. 89). Çoxlu adam ömürlük şikəst olmuş, meşələrdə gizlənənlərin çoxu isə həlak olmuşdur. Bu faktlar, həmin dövrdə baş verən tarixi prosesləri daha dərindən anlamaq, eləcə də bu dəhşətli hadisələrin miqyasını müəyyən etmək baxımından nəzəri və empirik əhəmiyyət daşıyır. Belə məlumatlar, həm regional münaqişələrin tədqiqi, həm də etnik münasibətlərin öyrənilməsi üçün mühüm elmi əsas yaradır.

Bundan əlavə, erməni qüvvələri Quba ətrafındakı bir çox kəndi yandırmaqla onlara aid olan tarixi abidələri də dağıtmışdır, bir çox qismi isə zərər görmüşdür. Quba şəhəri, müsəlmanlar və digər etnik qrupların mədəniyyətlərinin birləşdiyi bir məkan olduğu üçün burada yerləşən dini abidələr də dağıdılmışdır. Quba şəhərindəki bir çox qədim məscid, xüsusən də XIX əsrə aid olanlar, soyqırım zamanı hədəfə alınmışdır. Məscidlər, həm dini mərkəzlər, həm də bölgənin mədəni irsinin bir hissəsi olaraq önəmli idi. Soyqırım zamanı bu məscidlərin çoxu ya yandırılmış, ya da dağıdılmışdır. Bu, Quba regionunun mədəni irsinin böyük bir hissəsinin məhv olmasına səbəb olmuşdur. Kəndlərdəki məscidlər, karvansaralar və digər tarixi tikililər əsas olaraq hədəf alınmışdır. Xüsusilə vurğulamaq lazımdır ki, Quba qəzasının ən çox Dəvəçi, Siyəzən, Xaçmaz və digər kəndlərindəki evlər, məscidlər, məktəblər və digər tarixi abidələr erməni dəstələri tərəfindən yandırılaraq dağıdılmışdır. Məlum olan faktlara əsasən, erməni quldur dəstələri Quba qəzasının sakinlərinə on milyonlarla rubl dəyərində maddi zərər vurmuşdur. "1918-ci ilin əvvəllərində, inzibati-ərazi bölgüsünə görə, Quba qəzası Quba

şəhəri və beş polis nahiyəsini əhatə edirdi: Dəvəçi, Qusar, Müşkür, Rustov və 5-ci Fətihbəy. Bir çox kəndlər iki dəfə talana məruz qalmışdırlar" (4, s. 77).

Fövqəladə Təhqiqat Komissiyasının (FTK) sənədlərindəki digər bir dəhşətli fakt, ermənilərin Quba, Qusar və Xaçmaz bölgələrində yerləşən 26 məscidi yandırmasıdır. Bu hadisə, həmin dövrün sosial və mədəni zərərini daha da dərinləşdirən bir fakt kimi tarixşünaslıqda mühüm yer tutur və bu bölgələrdəki dini irsin məhv edilməsinin əhəmiyyətini vurğulayır. Tədqiqatlar göstərir ki, bu cür hadisələr yalnız fiziki dağıntılarla kifayətlənməyib, həm də yerli əhalinin dini və mədəni kimliyinə qarşı yönəlmiş sistematik bir təcavüzü əks etdirir. Zərər görmüş abidələr arasında Şıxlar kəndində yerləşən 1410-cu ildə inşa edilmiş qədim məscid də dağıdılmış, bu tarixi abidə günümüzə qədər istifadəsiz vəziyyətdə qalmışdır. Quba qəzasının Dəvəçi nahiyəsində Dəvəçi kəndində iki məscid və əmlakları qarət edilərək yandırılmışdır. Bunlardan biri "Dədə-Bazar" məscidi adlanırdı. Dəvəçi nahiyəsinindəki digər bir kəndi olan Saadan kəndində yerləşən məscid də ermənilər tərəfindən yandırılmışdır. Əlavə olaraq, Taqay icmasının Ərəb-Hamiyə kəndindəki məscid də eyni aqibəti yaşamış, müqəddəs kitablar parçalanaraq yandırılmışdır. Bu məscidə dəymiş zərər 30.000 manat qiymətləndirilmişdir.

Quba qəzasının digər nahiyələrində də belə hadisələr baş vermişdir. Məsələn, Müşkürlü nahiyəsinin Qara-Qurdlu icmasındakı Qaraçı kəndindəki məscid yandırılmışdır. Xudat kəndindəki məscid də tamamilə məhv edilmişdir. Bütün bu məscidlərin yandırılması, əmlakların talan edilməsi və müqəddəs kitabların yandırılması ermənilərin tətbiq etdiyi amansız siyasətin bir hissəsi idi.

"Müşkürlü nahiyəsinin başqa kəndlərində də məscidlər yandırılmış, zərər dəyən məscidlərin bəzilərinin dəyəri 70.000 manat olmuşdur. Həmçinin Beşinci Fəthibəy nahiyəsinin Alpan icmasındakı Digah kəndində bir məscid, içindəki qiymətli əşyalarla birlikdə, o cümlədən qızıl suyuna çəkilmiş Quranla birlikdə yandırılmışdır" (2). Bu hadisələr, Quba qəzasının müxtəlif bölgələrində tətbiq edilən erməni vəhşiliyini nümayiş etdirir. Bu hücumlar yalnız maddi zərər deyil, həm də əhalinin psixoloji vəziyyətinə mənfi təsir göstərmişdir.

Bu hadisələr, sosial və mədəni çətinliklərin kompleks bir ifadəsi olaraq, Azərbaycanın kollektiv yaddaşında dərin və silinməz izlər buraxmışdır. 1918-ci ilin mart soyqırımı, Azərbaycan tarixinin ən qanlı dövrlərindən biri olaraq qalmış və Quba bölgəsindəki faciələr, bu dövrün siyasi və sosial təsirlərinin nə qədər dərin olduğunu göstərmişdir. Soyqırım Quba bölgəsinin tarixi və mədəni irsinə vurulmuş ağır zərbə olsa da, zamanla bəzi abidələr bərpa edilmiş və mədəni irs qorunmağa başlanmışdır. Məsələn, Quba Soyqırımı Memorial

Kompleksi və digər tarixi layihələr vasitəsilə bu faciənin mədəni yaddaşı qorunur.

Eyni zamanda, bu tarixi proseslər, Azərbaycanın gələcək sosial-mədəni inkişafına təsir edən mühüm amillərdən biri kimi, etnoqrafik və tarixi tədqiqatlarda əhəmiyyətli bir yer tutmaqla yanaşı, həm də Azərbaycanın multikultural irsinin qorunması və gələcəkdə belə faciələrin qarşısının alınması üçün mühüm bir dərs olmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Abışov.V: Quba qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı:Elm, 2017. s.3-5.
2. Xəlilzadə. A (2014, noyabr 25). Quba qəzasında erməni qırğınları zamanı dağıdılmış müqəddəs abidələr. Modern.az. https://modern.az/tehsil/61202/quba-qezasinda-ermeni-qirinlari-zamani-daidilmis-muqeddes-abideler/
3. Paşayev A. Azərbaycanın Soyqırımı: 1918-ci il hadisələri. Bakı: Prezident Kitabxanası, 2017. S. 33-38.
4. Rüstəmova S.T: Quba. Aprel-May 1918-ci il. Müsəlman qırğınları sənədlərdə. Bakı: 2013.s.76,79.
5. Səfərov M. Yalanlar və Gerçəklər: erməni məsələsi. Quba: Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2020. s.88-93.
6. Vəliyeva M, Z.Əhmədova, A.Hüseynova: Azərbaycan Xalq Cümhuriyyəti – 100: biblioqrafiya. Bakı: Azərbaycan Milli Kitabxanası. S. 24-33.
7. Yeni Azərbaycan: (10 dekabr 2024-cü il). Multikulturalizm və Azərbaycanın inkişafı. https://yeniazerbaycan.az/MEDIA_e78714_az.html

**Гюнель Эйюбова**

**ВЛИЯНИЕ МАРТОВСКОГО ГЕНОЦИДА 1918 ГОДА**
**НА КУЛЬТУРНОЕ НАСЛЕДИЕ ГУБИНСКОГО РАЙОНА**

**Резюме:** Основная цель данной статьи – анализ геноцида, произошедшего в Азербайджане в 1918 году, с особым акцентом на трагические события в регионе Губа. Рассматриваются напряжённости, возникшие в результате этнических конфликтов и политической нестабильности после падения царской России. Статья уделяет особое внимание событиям в Губе и прилегающих районах, включая сожжение мечетей, разграбление домов и массовые убийства десятков тысяч людей.

Исследуется воздействие этих событий на мусульманские и еврейские общины, а также их психологические травмы. Особое внимание уделено долгосрочным последствиям этнического насилия для культурных и социальных структур общества.

**Ключевые слова:** Губинский геноцид, этнографические и социальные последствия, Азербайджанская Демократическая Республика, культурное наследие, историческая травма.

**Gunel Ayyubova**

## IMPACT OF THE MARCH 1918 GENOCIDE ON THE CULTURAL HERITAGE OF GUBA REGION

**Summary:** This article aims to analyze the genocide that occurred in Azerbaijan in 1918, with a particular focus on the tragedies in the Guba region. It examines the political and ethnic conflicts during that period, which arose following the collapse of Tsarist Russia. The paper centers on the atrocities committed in Guba city and surrounding areas, including the burning of mosques, looting of homes, and the killing of tens of thousands of people. It explores the impact of these events on the local Muslim and Jewish communities, as well as the psychological traumas they endured. The article highlights the long-term effects of ethnic violence on the cultural and social structures of the community.

***Key words***: Guba genocide, ethnographic and social impacts, Azerbaijan Democratic Republic, cultural heritage, historical trauma.